Quranda və Sünnədə

LƏNƏTLƏNMİŞLƏR

Birinci fəsil.
Quranda lənətlənmişlər

1) İblis. Aləmlərin Rəbbi olan Allah ona Adəmə səcdə etməyi əmr etdiyi zaman Onun əmrinə boyun əymədiyinə, təkəbbür göstərdiyinə, dikbaşlıq etdiyinə və Adəmə həsəd apardığına görə lənətlənmişdir. Uca Allah buyurur: **"Allah *şeytana* lənət etdi. O isə dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam".**[1] Yenə O buyurur: **"Haqq-hesab gününə qədər sənə lənət olacaqdır".**[2]

2) Firon və onun əsgərləri. Uca Allah buyurur: **"Firon və onun əsgərləri yer üzündə haqsız yerə təkəbbür göstərdilər və elə güman etdilər ki, hüzurumuza qaytarılmayacaqlar. Biz də onu və onun əsgərlərini tutub dənizə atdıq. Bax gör zalımların aqibəti necə oldu. Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir. Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar *Allahın rəhmətindən* qovulmuş kimsələrdən olacaqlar".**[3]

3) Münafiqlər. Uca Allah buyurur: **"Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. *Bu* onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır".**[4]

---

[1] "ən-Nisa" surəsi, 118.

[2] "əl-Hicr" surəsi, 35.

[3] "əl-Qəsəs" surəsi, 39-42.

[4] "ət-Tovbə" surəsi, 68.

4) Kafirlər. Xüsusən də kafir olmuş keçmiş ümmətlər: **"Onları həm bu dünyada, həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Həqiqətən, Ad qövmü öz Rəbbini inkar etdi. Məhv olsun Hudun qövmü Ad!"**[1]

5) Haqqı gizlədənlər. Bu xüsusda Uca Allah buyurur. **"Kitabda insanlara bəyan etdiyimiz açıq-aydın dəlilləri və doğru yol göstərən ayələri nazil etdikdən sonra onları gizli saxlayanlara həm Allah lənət edir, həm də lənət edə bilənlər lənət oxuyurlar!"**[2]

6) İman gətirdikdən, Peyğəmbərin həqiqi *peyğəmbər* olduğuna şahid olduqdan və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamlar. Uca Allah buyurur: **"İman gətirdikdən, Peyğəmbərin həqiqi *peyğəmbər* olduğuna şahid olduqdan və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər? Allah zalım adamları doğru yola yönəltməz. Onların cəzası, şübhəsiz ki, Allahın, mələklərin və bütün insanların onları lənətləməsidir. Onlar *bu lənətin içində* həmişəlik qalacaqlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir. Bundan sonra tövbə edib *öz əməllərini* islah edənlər isə istisnadır. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir."**[3]

7) Haqsız yerə insan öldürən kimsə. Uca Allah buyurur: **"Hər kəs qəsdən bir mömini öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm *olar*. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar."**[4]

---

[1] "Hud" surəsi, 60.

[2] "əl-Bəqərə" surəsi, 159.

[3] "Ali-İmran" surəsi, 86-89.

[4] "ən-Nisa" surəsi, 93.

8) Allahı və Onun Rəsulunu incidən kimsə. Uca Allah buyurur: **"Şübhə yoxdur ki, Allahı və Onun Elçisini incidənləri Allah həm bu dünyada, həm də Axirətdə lənətləmiş və onlara alçaldıcı bir əzab hazırlamışdır."**[1]

9) İsmətli qadınları zinada ittiham edən kimsə. Uca Allah buyurur: **"*Murdar əməldən* xəbəri olmayan ismətli mömin qadınları *zinada* günahlandıranlar dünyada və axirətdə lənətə düçar olarlar. Onları böyük bir əzab gözləyir."**[2]

10) Cəhənnəm ağaclarından olan Zəqqum ağacı. Uca Allah buyurur: **"Bir zaman Biz sənə: "Rəbbin insanları əhatə etmişdir"– demişdik. *Meracda* sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş ağacı insanlar üçün yalnız bir imtahan etdik. Biz onları qorxuduruq, bu isə onlarda ancaq böyük bir azğınlığı daha da artırır."**[3]

[1] "ən-Nur" surəsi, 23.
[2] "ən-Nur" surəsi, 23.
[3] "əl-İsra" surəsi, 60.

İkinci fəsil.
Sünnədə lənətlənmişlər.

1) Bədənə döymə[1] vuran və vurduran, qaş alan və aldıran, habelə gözəllik məqsədilə ön dişlərinin arasını yonduran kimsələr. Rəvayət edilir ki, *bir gün* Abdullah ibn Məsud رضي الله عنه dedi: "Allah bədəni döyən və döydürən, qaş alan və aldıran, gözəllik üçün dişlərinin arasını yondurub Allahın yaratdığında dəyişiklik edən qadınlara lənət eləsin!" Bu xəbər Bənu Əsəd qəbiləsindən olan Ummu Yaqub adlı bir qadına çatdıqda, o, İbn Məsudun yanına gəlib dedi: "Mənə xəbər çatdı ki, sən belə-belə lənətlər oxuyursan". O dedi: "Peyğəmbərin ﷺ lənət oxuduğu və Allahın Kitabında zikr olunan kimsəyə mən necə lənət oxumayım!?" Qadın dedi: "Mən bu iki lövhə arasında olanları[2] oxudum, amma sənin dediklərinə rast gəlmədim". İbn Məsud dedi: "Əgər sən onu *diqqətlə* oxusaydın, rast gələrdin. Məgər sən: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin!"** ayəsini oxumamısan?" Qadın dedi: "Bəli, *oxumuşam*". İbn Məsud dedi: "Bu əməlləri də məhz Peyğəmbər ﷺ qadağan etmişdir". Qadın dedi: "Axı mən sənin zövcənin də bunları etdiklərini görmüşəm". İbn Məsud dedi: "Get, yaxşı-yaxşı bax!" Qadın gedib baxdıqda, onun zövcəsinin

[1] Burada döymək deyildikdə, dəridə iynə ilə yazı yazmaq və ya şəkil çəkmək (tatuaj) nəzərdə tutulur. İslamaqədərki dövrdə əsasən qadınlar hansı qəbiləyə mənsub olduqlarını bildirmək üçün bədənlərinin bəzi yerlərinə yazı və ya şəkil döydürərdilər.

[2] Burada Quran kitabı nəzərdə tutulur.

qaşlarında heç bir dəyişiklik görmədi. İbn Məsud dedi: "Əgər bu qadının dediyi kimi olsaydı, mən zövcəmlə yaxınlıq etməzdim."[1]

İslam alimləri qadına bığları, qaşlar arasında, alt dodaq şırımında və dodaqlarda bitən tükləri qoparmağı, həmçinin aralarını yonmamaq şərti ilə əyri dişləri düzəltməyi də caiz görmüşlər.

2) Saçın ucuna saç calayan və calatdıran qadınlar. Yuxarıda qeyd etdiyimiz və Abdullah ibn Məsuddan ﵁ rəvayət olunan həmin hədisin digər ləfzində deyilir ki, o: "Allah saçın ucuna saç calayan qadınlara lənət eləsin"– dedi..."[2] Aişə ﵂ rəvayət edir ki, ənsardan olan bir qadın öz qızını ərə verdi. *Bir müddət sonra* qızın saçları töküldü. Qızın anası Peyğəmbərin ﷺ yanına gəlib bu barədə ona xəbər verdi və dedi: "Qızımın əri mənə qızımın saçının ucuna saç calamağı əmr edir". Peyğəmbər ﷺ dedi: "Xeyr, *belə etmə!* Çünki saçın ucuna saç calatdıran qadınlar lənətlənmişlər".[3] Bu barədə "Səhih əl-Buxari"də Əbu Hureyradan, Əsmadan, Aişədən və İbn Ömərdən ﵃ müxtəlif hədislər rəvayət olunmuşdur. Örtülü qalan eyiblərini ərlərindən və ya onlarla evlənmək istəyən kişilərdən gizli saxlasınlar deyə, saçın ucuna saç calayan və ya calatdıran qadınlar lənətlənmişlər.

3) Sələm yeyən və onunla məşğul olan şəxslər. Əbu Cuheyfə ﵁ demişdir: "Peyğəmbər ﷺ bədənə döymə vuran və vurduranı, sələm yeyən və yedirdəni lənətləmiş, itin və [zinaya

[1] Hədisi Buxari rəvayət etmişdir.
[2] Hədisi Buxari rəvayət etmişdir.
[3] Hədisi Buxari rəvayət etmişdir.

sövq edilmiş] kənizin müqabilində pul almağı qadağan etmiş, habelə, rəsm çəkənləri də lənətləmişdir".[1] Rəvayət edilir ki, Cabir və atası Abdullah ﷺ demişlər: "Peyğəmbər ﷺ sələm yeyəni və yedirdəni lənətləmişdir". *Hədisi rəvayət edən Əlqəmə deyir ki,* mən Abdullaha dedim: "Bu işdə katiblik edəni də, şahidlik edənləri də *lənətləmişdir*". Abdullah dedi: "Mən yalnız özüm eşidəni rəvayət edirəm".[2]

4) Ruhu olan hər hansı bir şeyin şəklini çəkənlər. Əbu Cuheyfə ﷺ demişdir: "Peyğəmbər ﷺ bədənə döymə vuran və vurduranı, sələm yeyən və yedirdəni lənətləmiş, itin və [zinaya sövq edilmiş] kənizin müqabilində pul almağı qadağan etmiş və rəsm çəkənləri lənətləmişdir".[3]

5) Heyvanları nişangah kimi istifadə edənlər. Buna heyvanı əyləncə məqsədilə öldürmək və ya yemək məqsədi olmadan ovlamaq aiddir. Rəvayət edilir ki, [bir dəfə] ibn Ömər ﷺ toyuğu [diri-diri] asıb oxla vuran bir dəstə adamın yanından keçirdi. Onlar ibn Öməri görüb dərhal dağılışdılar. İbn Ömər dedi: "Bunu kim edib? Peyğəmbər ﷺ belə hərəkət edən kimsəni lənətləmişdir".[4] İbn Ömər ﷺ rəvayət edir ki, "Peyğəmbər ﷺ ruhu olan istənilən bir şeyi nişangah kimi istifadə edəni lənətləmişdir".[5]

6) Evlənməyi tərk edib öz cinsini dəyişən kişi və qadınlar. Rəvayət edilir ki, ibn Abbas ﷺ demişdir: "Peyğəmbər ﷺ

[1] Hədisi Buxari rəvayət etmişdir.
[2] Hədisi Muslim rəvayət etmişdir.
[3] Hədisi Buxari rəvayət etmişdir.
[4] Hədisi Buxari rəvayət etmişdir.
[5] Hədisi Nəsai, Muslim və başqaları rəvayət etmişlər.

özlərini qadınlara oxşadan kişiləri və özlərini kişilərə oxşadan qadınları lənətləmişdir".[1]

7) Oğru. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Yumurta oğurladığına görə əli kəsilən, həmçinin ip oğurladığına görə əli kəsilən oğruya Allahın lənəti olsun!"[2]

8) Müsəlmanın malını onun izni olmadan yeyən şəxs. Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ hər bir tayfanın diyəsini[3] təsbit etdi, sonra da yazdı ki: "Heç bir müsəlmana, müsəlman bir kimsənin azad etdiyi köləsini onun izni olmadan özünə mənsub etməsi halal olmaz". Cabir deyir ki: "Sonra mənə xəbər verdilər ki, Peyğəmbər ﷺ həmin səhifədə bunu edən şəxsə lənət də etmişdir".[4]

9, 10, 11, 12) Atasına lənət oxuyan və ya onu söyən şəxs, Allahdan qeyrisinə qurban kəsən, cinayətkara sığınacaq verən və yer üzündəki sərhədləri dəyişən. Əli ibn Əbu Talib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Atasına lənət oxuyana Allah lənət eləsin! Allahdan qeyrisinə qurban kəsənə Allah lənət eləsin! Cinayətkara sığınacaq verənə Allah lənət eləsin! Yer üzündəki sərhədləri dəyişdirənə Allah lənət eləsin!"[5]

13) Heyvanın üzünə damğa vuran şəxs. Cabir ﷺ rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ, önündən keçən və üzünə damğa vurulmuş uzunqulağı gördükdə, dedi: "Bu damğanı vurana Allah lənət eləsin!"[6]

---

[1] Hədisi Buxari rəvayət etmişdir.
[2] Hədisi Buxari rəvayət etmişdir.
[3] Qanbahası.
[4] Hədisi Muslim rəvayət etmişdir.
[5] Hədisi Muslim rəvayət etmişdir.
[6] Hədisi Muslim rəvayət etmişdir.

14) Zövcəsi tərəfindən üç dəfə boşanmış qadınla, əvvəlki ərinə yenidən halal olsun deyə, boşanmaq niyyətilə evlənən ikinci ər və bundan xəbərdar olan birinci ər. Əli ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah, zövcəsi tərəfindən üç dəfə boşanmış qadınla, əvvəlki ərinə yenidən halal olsun deyə, boşanmaq niyyətilə evlənən ikinci ərə və bundan xəbərdar olan birinci ərə lənət eləsin!"[1]

15) Ölü üçün vay-şivən qoparıb ağlayan. Qərsə rəvayət edir ki, Əbu Musanın halı ağırlaşdıqda, onun zövcəsi fəryad qoparmağa başladı. Bu zaman Əbu Musa dedi: "Məgər sən Peyğəmbərin ﷺ dediklərini eşitməmisən?" Qadın "Bəli, *eşitmişəm*"– deyə cavab verdi və sakitləşdi. Bundan sonra qadından: "Peyğəmbər ﷺ nə demişdir?"– deyə soruşdular və o dedi: "Doğrudan da, Peyğəmbər ﷺ saçını qırxan, fəryad qoparan və pal-paltarını cıran qadına lənət oxumuşdur".[2] Bu hədisdə "saçını qırxan" deyildikdə, yaxın bir adamının ölümünə görə saclarını qırxan qadın, "fəryad qoparan" deyildikdə, hər hansı bir müsibətə görə vay-şivən salıb fəryad qoparan qadın, "pal-paltarını cıran" deyildikdə isə, başına müsibət gəldiyi zaman şivən salaraq paltarını (yaxasnı) cıran qadın nəzərdə tutulur. Əbu Umamə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ üz-gözünü cırmaqlayan, yaxasını cıran və özünə bəla və ölüm diləyən qadına lənət oxudu".[3]

---

[1] Hədisi Əbu Davud rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən Əbu Davud", 2076.

[2] Hədisi Nəsai rəvayət etmişdir. Albani bu hədisin isnadının səhih olduğunu söyləmişdir. "Səhih və Daif Sunən ən-Nəsai", 1867.

[3] Hədisi İbn Macə rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən İbn Macə", 1585.

16) Qəbirlərin üzərində məscidlər tikən və ya onların yanında namaz qılan və gecələr qəbirlərin yanında qalmaq üçün onları işıqlandıran şəxslər. Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah, peyğəmbərlərinin qəbirləri üzərində məscidlər tikən *(onları ibadətgaha çevirən)* qövmə lənət eləsin!"[1]

17) Rüşvət verən və rüşvət alan şəxs. Rəvayət edilir ki, Abdullah ibn Amr رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ rüşvət verən və rüşvət alan şəxsə lənət etmişdir".[2]

18) Sərxoşedici içki içən, onu düzəldən və onunla məşğul olan şəxslər. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah sərxoşedici içkiyə, onu içənə, süzənə, satana, alana, düzəldənə, düzəltdirənə, daşıyana və daşıtdırana lənət eləsin!"[3]

19) *Haqsız yerə* lənət oxuyan kəs, xüsusən də lənətə layiq olmayana lənət oxuyan şəxs. Külək, heyvanlar və bu kimi lənətə layiq olmayanlara lənət oxuyanın özünün lənətə məruz qalması barədə bir çox dəlillər vardır. Rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbərin ﷺ dövründə külək bir kişinin ridasını[4] əynindən alıb apardı. Bu zaman kişi küləyi lənətləməyə başladı. Onda Peyğəmbər ﷺ həmin kişiyə belə dedi: "Küləyə lənət oxuma! Çünki o əmr olunanı yerinə yetirir.

---

[1] Hədisi Nəsai rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən ən-Nəsai", 2046.

[2] Hədisi Əbu Davud rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən Əbu Davud", 3580.

[3] Hədisi Əbu Davud rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən Əbu Davud", 3674.

[4] Bədənin qurşaqdan aşağı hissəsini örtmək üçün istifadə edilən örtük.

Şübhə yoxdur ki, kim lənətə layiq olmayan bir şeyə lənət oxuyarsa, həmin lənət onun özünə qayıdar".[1]

20) Əri *yaxınlıq etmək istədiyi zaman* ondan imtina edən və ona itaət etməyən qadın. Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kişi öz həyat yoldaşını yatağına çağırdığı zaman qadın [ona] yaxınlıq verməsə və əri [bu səbəbdən] ona qəzəbi tutmuş halda yatsa, mələklər səhərə qədər o qadına lənət oxuyar".[2]

21) Zəkat və sədəqə verməkdən boyun qaçıran. Rəvayət edilir ki, Əli ibn Əbu Talib ﵁ demişdir: "Sədəqə verməkdən boyun qaçıran şəxs lənətlənmişdir".[3]

22) Peyğəmbərə ﷺ əziyyət vermiş və onun dəvətinə qarşı mübarizə aparmış ərəb qəbilələri, xüsusən də Məunə adlı su quyusunun yanında Peyğəmbərin ﷺ səhabələrindən olan qariləri öldürənlər. Uca Allahdan istəyirik ki, biz onların nəslindən olmayaq! Ənəs ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ bir ay qunut duası[4] edərək Ril, Zəkvan və Lihyan qəbilələrinə lənət oxumuşdur".[5]

Rəvayət edilir ki, Xufəf ibn İyma ibn Rahda əl-Ğifari ﵁ demişdir: "Peyğəmbər ﷺ bizimlə birlikdə sübh namazını qıldı. O, sonuncu rükətdə başını rükudan qaldırdıqdan sonra dua

---

[1] Hədisi Əbu Davud rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən Əbu Davud", 4908.

[2] Hədisi Buxari rəvayət etmişdir.

[3] Hədisi Tirmizi rəvayət etmişdir.

[4] Namazın axırıncı rükətində rükudan əvvəl və ya sonra oxunan dua.

[5] Hədisi Nəsai rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən ən-Nəsai", 1077.

edib dedi: "Allah Lihyan, Ril, Zəkvan və Allaha və Rəsuluna asi olan Üseyyə qəbilələrinə lənət etsin! Allah Əsləm qəbiləsinə əmin-amanlıq nəsib etsin! Allah Ğifar qəbiləsini bağışlasın!" Sonra Peyğəmbər ﷺ səcdəyə getdi. O, namazını bitirdikdən sonra *üzünü camaata çevirib* belə dedi: "Ey insanlar, bu duaları mən *özümdən* demədim, bunları məhz qüdrətli və əzəmətli Allah dedi".[1]

Rəvayət edilir ki, Amr ibn Abəsə əs-Suləmi رضي الله عنه demişdir: "Bir gün Peyğəmbərə ﷺ at göstərilərkən Uyeynə ibn Hisn ibn Bədr əl-Fəzəri də onun yanında idi. Bu zaman Peyğəmbər ﷺ ona dedi: "Mən atları səndən daha yaxşı tanıyıram". Uyeynə dedi: "Mən isə insanları səndən daha yaxşı tanıyıram". Peyğəmbər ﷺ dedi: "*İnsanları* necə tanıyırsan?" Uyeynə dedi: "Ən xeyirli insanlar qılınclarını çiyinlərində, nizələrini isə atlarının boyunlarında saxlayan və bürüncək geyinən Nəcd əhlidir". Peyğəmbər ﷺ dedi: "Yalan söylədin! Əksinə, ən xeyirli insanlar Yəmən əhlidir. İman Yəməndə[2] Ləxm, Cuzəm və Amilə qəbilələrindədir. Himyərin yeyilənləri[3] yeyənlərdən[4] daha xeyirlidir. Hədrəməutlular Bənu Harisdən daha xeyirlidir. *Hədrəməutlular arasında* elə qəbilə vardır ki, *harislilər arasındakı* qəbilədən daha xeyirlidir, eləsi də vardır ki, onlardan daha şərlidir. Allaha and olsun ki, Haris qəbilələrinin hər ikisinin həlak olması heç vecimə də deyil. Allah dörd hökmdara – Cəmədə, Mixvəsə, Mişrəhə,

[1] Hədisi Əhməd rəvayət etmişdir. Şueyb Arnaut bu hədisin səhih olduğunu söyləmişdir. "Musnəd" əsərinin təxrici, 16619.

[2] Peyğəmbər ﷺ demək istəmişdir ki, yəmənlilər başqalarına nisbətdə daha tez imana gəlirlər.

[3] Burada sadə camaat, rəiyyət nəzərdə tutulur.

[4] Burada hökmdarlar nəzərdə tutulur.

Abdaəyə, həm də onların bacısı Amərrədəyə lənət eləsin! Qüdrətli və əzəmətli Rəbbim mənə Qureyşə iki dəfə lənət oxumağımı əmr etdi, mən də onlara lənət oxudum. Sonra mənə əmr etdi ki, onlara iki dəfə xeyir dua oxuyum, mən də onlara iki dəfə xeyir dua oxudum". Sonra Peyğəmbər ﷺ *sözünə davam edib* dedi: "Qeys və Cə'də istisna olmaqla, Useyyə qəbiləsi Allaha və Rəsuluna asi oldu. Əsləm, Ğifar, Muzeynə qəbilələri və onların Cuheynədən olan sadə camaatı Qiyamət günü qüdrətli və əzəmətli Allahın dərgahında Bənu Əsəd, Təmim, Ğatafan və Həvazin qəbilələrindən daha xeyirli olacaq. Ərəblərin *qəbilələri* arasında ən şər qəbilə Nəcran və Bənu Təğlib qəbilələridir. Qəbilələr arasından ən çox Cənnətdə olanı isə Məzhic və Mə'kul qəbilələridir".[1]

23) Əqrəb. Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ namazda ikən əqrəb onu sancdı. Bu zaman Peyğəmbər ﷺ dedi: "Allah əqrəbə lənət eləsin! O nə namaz qılanı, nə də qılmayanı sərbəst buraxmır. Onu həm halal, həm də haram sayılan ərazidə[2] öldürün!"[3]

24) Qəbir soyğunçusu. Rəvayət edilir ki, Amrə bint Abdurrəhman demişdir: "Peyğəmbər ﷺ gizlincə iş tutan kişiyə və qadına (yəni, qəbir soyğunçularına) lənət etmişdir".[4]

---

[1] Hədisi Əhməd rəvayət etmişdir. Şueyb Arnaut bu hədisin isnadının səhih olduğunu söyləmişdir. "Musnəd" əsərinin təxrici, 19463.

[2] Məkkə və Mədinə şəhərlərindəki toxunulmaz ərazi.

[3] Hədisi İbn Macə rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən İbn Macə", 1246.

[4] Hədisi Malik "Muvatta" əsərində rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif əl-Cami əs-Sağir", 9233.

25) Həccin ən əzəmətli günləri olan Ərəfat günü, Qurban günü və bayramın digər üç günü ərzində həcc edənin təlbiyəsini saxlaması. Səid ibn Cübeyr deyir ki, bir dəfə İbn Abbas ﵄ Ərəfatda nar yeyərkən mən onun yanında idim. O dedi: «Bir dəfə Allahın elçisi ﷺ Ərəfatda ikən Ummul Fadl ona süd göndərdi, o da südü içdikdən sonra dedi: "Allah filankəslərə lənət eləsin! Onlar həccin ən əzəmətli günlərinin zinətini tərk etdilər. Şübhəsiz ki, həccin zinəti təlbiyədir"».[1]

26, 27, 28, 29) Gözləri görməyənə yolu səhv demək, pozğun işlər görmək (homoseksualizm), heyvanlarla [cinsi] yaxınlıq etmək və valideynə qarşı asilik etmək. İbn Abbasdan ﵄ Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Allahdan başqası üçün qurban kəsənə Allahın lənəti olsun! Yer üzərindəki sərhədləri dəyişdirənə Allahın lənəti olsun! Gözləri görməyəni yolundan azdırana Allahın lənəti olsun! Valideynini söyənə Allahın lənəti olsun! Ağasından qeyrisini özünə ağa təyin edən qula Allahın lənəti olsun! Heyvanla [cinsi] yaxınlıq edənə Allahın lənəti olsun! Lut qövmünün etdiyi əməli edənə Allahın lənəti olsun! Lut qövmünün etdiyi əməli edənə Allahın lənəti olsun! Lut qövmünün etdiyi əməli edənə Allahın lənəti olsun!"[2]

30) Qardaşının üzünə qılınc və ya başqa silah çəkmək, habelə, onu təhlükəli halda bir-birinə ötürmək. Cabirdən ﵁ rəvayət olunur ki, Bənnət əl-Cuhəni ona xəbər vermişdir ki, bir

---

[1] Hədisi Əhməd rəvayət etmişdir. Şueyb Arnaut bu hədisin isnadındakı ravilərin Buxari və Muslimin istinad etdiyi etibarlı ravilərdən olduğunu söyləmişdir. "Musnəd" əsərinin təxrici, 1870.

[2] Hədisi Əhməd rəvayət etmişdir. Hədis səhihdir. Bax: "Silsilət əl-Əhadis əs-Səhihə", 3462.

dəfə Peyğəmbər ﷺ məscidin və ya bir məclisin yanından keçərkən gördü ki, oradakılar bir-birilərinə qılınc çəkir və onu bir-birilərinə açıq vəziyyətdə ötürürlər. Onda Peyğəmbər ﷺ dedi: "Belə edənlərə Allahın lənəti olsun! Məgər mən sizləri bundan çəkindirməmişdim? Qılınc çəkdiyiniz zaman onu qınına qoyub sonra qardaşına versin".[1]

Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "Kim qardaşının üzərinə dəmir parçası qaldırarsa, hətta doğma qardaşı olsa belə, mələklər ona lənət edir".[2]

31, 32, 33) Atasından qeyrisinə mənsub edilmə, özünü ehtiyaclarını ödəyən ağasına deyil, başqasına məxsus edən və Haram sayılan ərazidə günahkara sığınacaq verən. Rəvayət edilir ki, Əli رضي الله عنه demişdir: "Kim iddia etsə ki, bizim əlimizdə Allahın Kitabından və Peyğəmbərin ﷺ [hədisləri yazılmış] bu səhifələrdən[3] savayı oxuduğumuz başqa bir şey vardır, yalan söyləmiş olar". Həmin səhifələrdə bu sözlər yazılmışdı: "Ayr dağı ilə Sövr dağı arası Mədinənin haram sayılan ərazisidir. Kim [orada] günah iş görsə və ya günahkar adama sığınacaq versə, ona Allahın, mələklərin və bütün insanların lənəti olar – Qiyamət günü Allah ondan nə vacib bir əməl, nə də nafilə bir ibadət qəbul edər. Aman verən şəxs ən aşağı təbəqədən olsa belə, müsəlmanların [kafirə] aman verməsi birdir[4]. Kim yad bir

[1] Hədisi Əhməd rəvayət etmişdir. Şueyb Arnaut bu hədisin isnadının həsən olduğunu söyləmişdir. "Musnəd" əsərinin təxrici, 14784.

[2] Hədisi Muslim rəvayət etmişdir.

[3] Hədisi rəvayət edən ravi söyləyir ki, onun qılıncının qınından bir səhifə asılmışdı.

[4] Bir müsəlmanın kafirə aman verməsi, bütün müsəlmanların ona aman verməsi deməkdir.

adamın öz atası olduğunu iddia etsə və ya ağasından qeyrisini öz ağası olduğunu iddia etsə, ona Allahın, mələklərin və bütün insanların lənəti olar – Qiyamət günü Allah ondan nə vacib bir əməl, nə də nafilə bir ibadət qəbul edər".[1]

34) Səhabələri söyən. İbn Ömər ﵄ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Səhabələrimi söyənə Allahın lənəti olsun!"[2]

35) Qadınla arxadan[3] yaxınlıq etmək. Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: "Qadını ilə arxadan yaxınlıq edən lənətlənmişdir!"[4]

36) Dünya və onun üzərindəkilər. Əbu Hureyradan ﵁ rəvayət olunur ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Şübhəsiz ki, Allahı zikr etmək, Onun sevdiyi əməllər, habelə elm öyrədən və elm öyrənən istisna olmaqla, dünya və onun üzərindəkilər lənətlənmişdir".[5]

37) Təbii ehtiyacını insanların yolunda rəf edən. Əbu Hureyra ﵁ rəvayət edir ki, [bir dəfə] Peyğəmbər ﷺ buyurdu: "Çoxlu lənətə bais olan iki şeydən çəkinin!" [Səhabələr] soruşdular: "Çoxlu lənətə bais olan iki şey hansıdır, ya Rəsulullah?"

---

[1] Hədisi Muslim rəvayət etmişdir.

[2] Hədisi əs-Suyuti "Cəmi əs-Sağir" əsərində rəvayət etmişdir. Hədis həsəndir. "Səhih əl-Cami", 5111.

[3] Anusdan.

[4] Hədisi Əbu Davud rəvayət etmişdir. Hədis həsəndir. "Səhih və Daif Sunən Əbu Davud", 2162.

[5] Hədisi Tirmizi rəvayət etmiş və onun həsən-ğarib olduğunu söyləmişdir. Hədis həsəndir. "Səhih və Daif Sunən ət-Tirmizi", 2322.

[Peyğəmbər ﷺ] buyurdu: "İnsanların yolunda, yaxud kölgələndikləri yerdə təbii ehtiyacını rəf edən kimsənin [etdiyi bu əməldir]".[1]

38) Allahın Üzü xatirinə yardım istəyən. Əbu Musa رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allahın Üzü xatirinə yardım istəyən şəxs lənətlənmişdir. Pis bir şey istəmədiyi təqdirdə Allahın Üzü xatirinə istəyənə verməyən kəs də lənətlənmişdir".[2]

39) Barəsində ölüm hökmü çıxarılan məhkumun öldürülməsinə mane olan şəxs. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qatilinin dəqiq müəyyən edilməsi mümkün olmadığı halda ölən və ya bir-birilərinə daş və ya qırmanc atdıqları zaman ölən şəxsin qanbahası, xəta nəticəsində ölənin qanbahası kimidir. Qəsdən öldürülən şəxsin qatilinin hökmü isə ölüm hökmüdür. Kim bu qatil ilə hökmün arasına girərsə, ona Allahın, mələklərin və bütün insanların lənəti olsun!"[3]

40) Mədinə əhlinə zülm etmək və onları hədələmək. Saib ibn Xallәd رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Mədinə əhlinə hədə-qorxu gələrsə, Allah da ona hədə-qorxu gələr və ona Allahın, mələklərin və bütün insanların lənəti

[1] Hədisi Muslim rəvayət etmişdir.

[2] Hədisi Təbərani rəvayət etmişlər. Hədis həsəndir. Bax: "Səhih Tərğib vət-Tərhib", 851.

[3] Hədisi Əbu Davud rəvayət etmişdir. Hədis səhihdir. "Səhih və Daif Sunən Əbu Davud", 4591.

olar. Qiyamət günü Allah ondan nə vacib əməllər, nə də nafilə ibadətləri qəbul edər".[1]

Saib ibn Xalləddən رضي الله عنه rəvayət olunan digər hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: "Allahım, Mədinə əhlinə zülm edən və onlara hədə-qorxu gələn şəxsə Sən də hədə-qorxu gəl! Həmin şəxsə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Allah ondan nə vacib əməlləri, nə də nafilə ibadətlərini qəbul edər."[2]

[1] Hədisi Əhməd rəvayət etmişdir. Şueyb Arnaut bu hədisin isnadının səhih olduğunu söyləmişdir. "Musnəd" əsərinin təxrici, 16608.

[2] Hədisi Təbərani rəvayət etmişdir. Hədis səhihdir. Bax: "Səhih Tərğib vət-Tərhib", 1215.